**Moskva və bütün Rusiyanın Patriarxı KİRİLLİN**
**Rus Pravoslav Kilsəsinin arxipastırlarına, keşişlərinə, diakonlarına, rahiblərinə və bütün sadiq övladlarına**
**Milad müraciəti**

**Ey arxipastırlar həzrətləri,**
**möhtərəm presviterlər və diakonlar, Tanrı aşiqi rahib və rahibələr,**
**əziz bacılar və qardaşlar!**

Üçlükdə izzətlənən Allaha həmd edərək və bu bayramın sevincini sizin hamınızla bölüşərək, həm Rusiyada, həm də Moskva Patriarxlığının pastır qayğısının digər ölkələrində yaşayan Kilsəmizin pravoslav övladlarına müraciət edirəm və Xaliqin xilqətinə təcəssüm etmiş məhəbbəti, Allah Oğlunun yer üzünə gəlişi vədinin yerinə yetirilməsi, qurtuluşa və əbədi həyata ümidin bayramı olan Milad - Məsihin Mövludu bayramı münasibətilə sizi ürəkdən təbrik edirəm.

*Böyük və izzətli möcüzə baş verir bugün: Bakirə dünyaya Övlad gətirir, bətni bakirə qalır: Kalam cismə bürünür, Atadan isə ayrılmır. Mələklər və çobanlar həmdlər oxuyur, biz də onlarla nida edirik: Göylərdə Allaha həmd olsun və yer üzünə sülh gəlsin* (bayramın stixirası).

Bu sözlərlə Məsihin Kilsəsi iki min ildən çox əvvəl Beytləhm mağarasında baş vermiş və dünya tarixinin bütün sonrakı gedişatını dəyişdirən sirli hadisəyə şəhadət verir. Qurtuluş haqda İlahi niyyətin insan ağlı üçün dərkedilməz olan bu sirri qarşısında heyrət və ehtiramla qəlblərimizin dərinliyində səcdə edirik. Bunu bizə bəxş edən Yaradanın və Qəzavü-Qədər Sahibinin bu qurban ənamını şükürlə qəbul edərək, lütfü iqrar edir, rəhmi vəz edir və mərhəməti gizlətmirik (suların təqdis edilməsi - böyük "agiasma" duası).

XXI əsrin xristianları olan biz, Allahın bu həqiqətən əvəzsiz nemətinə şərik olmaq və dünyanın yaradılışından bizim üçün hazırlanmış Onun Padşahlığına layiq olmaq üçün nə etməliyik (Matta 25, 34)?

Həyatımızda edə biləcəyimiz və etməli olduğumuz tək şey Onun məhəbbətinə qarşılıq verməkdir. Bu isə Allaha inanmaq və tam etibar etmək, İncil əmrlərini yerinə yetirmək, pislikdən çəkinmək və yaxşılıq

etmək (Məz. 33:15), Xilaskarın çağırışına görə dünyanın nuru və yerin duzu olmaq deməkdir (Matta 5,13-14).

İstənilən insan azad iradəyə və ayrılmaz seçim hüququna malik olmaqla Məsihi ya qəbul edə bilər, ya da Onu rədd edə bilər, ya nurun tərəfində ola bilər, ya da günahın qaranlığına qərq ola bilər, ya vicdanına uyğun ya da bu dünyanın ibtidai təlimlərinə uyğun yaşaya bilər (Gal. 2:8), yaxşı əməllər vasitəsilə ürəyində cənnəti yarada bilər, ya əksinə, pislik etməklə, artıq yer üzündə cəhənnəm əzablarını çəkə bilər. Başqa sözlə, hər birimiz həyatın sevincinə və dolğunluğuna, sadə dillə desək, xoşbəxtliyə çağırılmışıq. Bu isə isə - bunu dərk etmək və anlamaq vacidbir - Allahsız mümkün deyil, çünki Allahdır həyatın və bütün yaxşılığın mənbəyi, Odur Yaradan və Qəzavü-Qədər Sahibi, Odur mehriban Ata, bizim qayğıkeş Köməkçimiz və Himayədarımız. İradə azadlığına malik olan insan həyatı seçə və Allaha bənzəməyə nail ola bilər, lakin o, həmçinin, özü üçün məhvə aparan başqa, Allahsız və lütfsüz həyatı seçməkdə də azaddır.

Odur ki, bizi yaradan Rəbb bizim iştirakımız olmadan bizi xilas etmir. Allahın xoş və kamil iradəsinin (Rom. 12:2) insanın, qeyri-kamil olsa belə yaxşılığa can atan iradəsi ilə uyğunlamasındadır bizim yer üzündəki həyatımızın uğurla başa çatmasının açarı. Sonda, hər bir insanın əbədi taleyi yer üzündə ona xas olan mənəvi halının davamı olacaq.

Bunu xatırlayaraq, gəlin, həvari Paulun sözünə görə, özümüzdə məhəbbət, sevinc, sülh, səbir, xeyirxahlıq, mərhəmət, iman, həlimlik, nəfsə hakim olmaq və Ruhun digər ənamlarını yaşatmağa çalışaq (Qal. 5, 22-23). Gəlin təkcə adda deyil, həm də həyat tərzində, ailə və dostlarımıza, iş yoldaşlarımıza və həmkarlarımıza, köməyimizə, şəfqətimizə və dəstəyimizə ehtiyacı olan hər bir insana münasibətdə xristian olmaq üçün əlimizdən gələni edək.

Bütün günlərdə, xüsusən də bu böyük bayramda biz bütün dünyada sülhün bərqərar olması və Allahın müqəddəs Kilsələrinin rifahı üçün, xəstələr, əzab çəkənlər, əsirlər və onların xilası üçün ürəkdən dua etməyə çağırılırıq. Bu niyazların əhəmiyyəti indi çox aktualdır, çünki müharibə və nifaq istəyən şər qüvvələr Pravoslavlığa qarşı silahlanıblar. Onlar ədavət və nifrət toxumu səpərək məkrli niyyətlərini həyata keçirmək üçün hər vasitəyə əl atırlar. Lakin biz inanırıq və ümid edirik ki, Allahın qüdrəti ilə şeytanların və onların əlaltılarının bütün aciz lovğalıqları rüsvay olacaq.

Bu, keçmişdə dəfələrlə olub, indi də belə olacaq. Kilsənin çoxəsrlik təcrübəsi bizi buna inandırır.

İndi Ukrayna daxilində, bəzən həyat və sağlamlıq üçün risk altında pastırlıq xidməti yerinə yetirərək kanonik Pravoslavlığa sadiq qalmaqda davam edən, iqrar yolunu qorxmadan davam etdirən, Məsih və Kilsə üçün təqiblərə və kədərə dözən hər kəsə xüsusi minnətdarlığımı bildirirəm. Qoy Rəbb Haqqın belə cəsarətli müdafiəçilərinə sınaqlarda kömək etsin və onların əziyyətini salehlik saysın.

Heç nəyə baxmayaraq, biz ruhən birik. Biz birik, çünki biz bir vəftiz hovuzundan çıxmışıq. Biz birik, çünki birlikdə Vahid, Müqəddəs, Ümumi və Həvari Kilsəsinin dolğunluğunu təşkil edirik. Biz birik, çünki Məsihdə qırılmaz məhəbbət bağları ilə bağlıyıq. Biz birik, çünki Xilaskarın sözləri dəyişməzdir: "Mən dövrün sonuna qədər hər gün sizinləyəm" (Matta 28, 20). Buna görə də, biz xristianların qorxacaq heç kimi və heç nəyi yoxdur, necə ki həvari Paul nida edərək xatırladır: "Əgər Allah bizimlədirsə, kim bizə qarşı dura bilər?" (Rom. 8,31). Bu vəddən ilhamlanaraq biz Rəbbin adı ilə yaşayır və yaradırıq, mübarizə aparır və qalib gəlirik, çünki müqəddəs həvari Peterin yazdığı kimi, "səma altında biz insanlara verilən başqa ad yoxdur ki, onun vasitəsilə xilas olaq" (Həvarilərin işləri 4,12). Kilsə şəhadət edir ki, bəli: olmayıb, yoxdur və olmayacaq.

Rəbbin yer üzünə gəldiyi vaxtdan indiyə kimi Ona iman edənlərin hamısına Səmavi Atanın övladları olmaq imkanı verilmişdir, çünki müqəddəs həvari Paulun təsdiq etdiyi kimi, artlq biz yad və qərib deyilik, Allah ailəsinin üzvüyük ( Ef 2, 19). Bu isə o deməkdir ki, biz hamımız Onun övladlarıyıq, Onda və Onun vasitəsilə bir-birimizə yaxınıq.

İnsanın öz Yaradanı ilə görüşdüyü yer olan Kilsənin ibadəti və müqəddəs ayinlərində bizim üçün əbədilik pərdəsi qaldırılır və biz artıq burada, yer üzündə, gələcək həyatın dolğunluğunu dada bilirik. O qələcək zamanda, Kitabi-Müqəddəsdə yazıldığı kimi, Allah hər şeydə hər şey olacaq (1 Kor. 15, 28), heç kim və heçnə bizi Allahın məhəbbətindən (Rom. 8,39), Onunla ünsiyyət sevincindən ayıra bilməyəcək, Allah insanların bütün göz yaşlarını siləcək, artıq ölüm olmayacaq, çünki əvvəlki şeylər keçib getdi (Vəhy 21,4).

Xilaskarın dünyaya gəlişi haqqında müjdəni insanlara çatdıran Kilsə, mehriban bir ana kimi, hamını əbədi səadət varisləri olmaq üçün Məsihə inanmağa və Onun əhdinə uyğun yaşamağa çağırır. Həqiqətən, Rəbb bizi

cənnətə aparmaq üçün yer üzünə endi. O, hər zaman insanları İncil əmrlərini yerinə yetirməklə, insanla Allah arasında könüllü əməkdaşlıq etməklə və Kilsənin müqəddəs Sirrləri ilə nazil olunan Allahın lütfünün köməyi ilə əldə edilən mənəvi və əxlaqi dəyişmə yolu ilə getməyə dəvət edir.

İnsanlarla münasibətlərdə, gündəlik işlərdə və qayğılarda İlahi ehkamlar ilə yaşamağı öyrənsək, o zaman təkcə bizdə deyil, ətrafımızda da çox şey dəyişəcək: həyat əsl məna əldə edəcək, həqiqi sevinc və xoşbəxtliklə dolacaq.

Gəlin xristian adına və çağırışına layiq olaq. Gəlin həyat yolunu möhkəm iman və ucalardan gələcək köməyə sarsılmaz ümidlə gedək, hər yeni günə və yaxşı işlər görmək üçün yeni fürsətə sevinək, qonşularımızı sevək və hər zaman və hər şey üçün Allaha şükür edək (Efes. 5:20), çünki bütün izzət, həmd və səcdə əbədi olaraq Ona məxsusdur. Amin.

Hamınızın bayramı – Məsihin Miladı mübarək olsun, əzizlərim!

**MOSKVA VƏ BÜTÜN RUSİYANIN PATRIARXI**

*Məsihin Miladı,*
*2024 / 2025-ci il,*
*Moskva*